UOT 327
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2205

**İRADƏ ƏLƏKBƏR QIZI ABDULLAYEVA**
*Bakı Dövlət Universiteti*
*Diplomatiya və müasir inteqrasiya proseslər kafedrası, müəllim*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: irada.abdullayeva.19@gmail.com*
*https://orcid.org/0000-0001-6856-9357*

# ŞUŞA VƏ MOSKVA BƏYANNAMƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ: AZƏRBAYCANIN BALANSLAŞDIRILMIŞ XARİCİ SİYASƏTİ KONTEKSTİNDƏ

**XÜLASƏ**

Məqalədə 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının imzaladığı iki strateji sənəd Türkiyə Respublikası ilə 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsi və Rusiya Federasiyası ilə 22 fevral 2022-ci il tarixli Moskva Bəyannaməsi müqayisəli şəkildə təhlil edilir. Bəyannamələrin hüquqi forması, siyasi-hərbi öhdəliklərin dərinliyi, iqtisadi-nəqliyyat və humanitar istiqamətləri araşdırılır. Xüsusilə qarşılıqlı hərbi yardım müddəalarının fərqli xarakteri diqqət mərkəzinə çəkilir. Həmçinin məqalədə hər iki sənədin bəyannamə formasında olması, bəyannamə ilə beynəlxalq müqavilə arasındakı hüquqi fərq və bu formaya üstünlük verilməsinin səbəbləri araşdırılır. Məqalədə belə nəticəyə gəlinir ki, fərqli hərbi-siyasi bloklara mənsub iki dövlətlə eyni zamanda müttəfiqlik sənədlərinin imzalanması Azərbaycan üçün ziddiyyət deyil, məhz onun çoxvektorlu və balanslaşdırılmış xarici siyasətinin məntiqi ifadəsidir.

**Açar sözlər:** *Şuşa Bəyannaməsi, Moskva Bəyannaməsi, müttəfiqlik, strateji tərəfdaşlıq, balanslaşdırılmış xarici siyasət, çoxvektorlu siyasət, güc balansı, Azərbaycan, Türkiyə, Rusiya.*

## Giriş

2020-ci il Vətən müharibəsində Azərbaycanın qələbəsi və Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıq regionun aparıcı dövlətləri ilə münasibətlərin yenidən qurulmasını zəruri etdi. Bu prosesin ən mühüm davamı kimi Azərbaycan Respublikasının qısa müddət ərzində iki böyük dövlətlə - Türkiyə və Rusiya ilə müttəfiqlik səviyyəsində sənədlər imzalaması oldu. Beynəlxalq hüququn əsas prinsip və normalarına uyğun olaraq 15 iyun 2021-ci il tarixində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi [1], 22 fevral 2022-ci il tarixində isə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Moskva Bəyannaməsi [2] dövlət başçıları tərəfindən imzalandı.

İki müxtəlif hərbi-siyasi bloka mənsub dövlətlə - NATO üzvü Türkiyə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına başçılıq edən Rusiya ilə eyni dövrdə müttəfiqlik bəyannamələrinin imzalanması bəzi siyasi dairələrdə Azərbaycan üçün gələcəkdə problem yarada biləcəyi narahatlığını doğurdu. Hətta bəzi türk siyasətçiləri Şuşa Bəyannaməsindən sonra Azərbaycanın Rusiya ilə "tələsik" şəkildə eyni mahiyyətli sənəd imzalamasına ehtiyac olmadığını bildirmişdilər. Bu mülahizələr həm hər iki sənədin mahiyyətcə eyni olub-olmaması, həm də onların Azərbaycanın xarici siyasət kursu ilə uzlaşması barədə sualları gündəmə gətirir.

Məqalənin məqsədi Şuşa və Moskva bəyannamələrinin müqayisəli təhlilini aparmaq, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, habelə hər iki sənədin Azərbaycan, Türkiyə və Rusiya üçün hansı əhəmiyyət daşıdığını araşdırmaqdır. Hər iki bəyannamənin mətninə əsaslanan təhlilin nəticəsi olaraq deyə bilərik ki, fərqli bloklara mənsub iki dövlətlə müttəfiqlik sənədlərinin imzalanması Azərbaycanın xarici siyasətində ziddiyyət deyil, onun balanslaşdırılmış, çoxvektorlu kursunun məntiqi nəticəsidir.

Əsas. İlk öncə hər iki bəyannamənin niyə "beynəlxalq müqavilə" deyil məhz "bəyannamə" formasında olmağına nəzər salaq. Son illər beynəlxalq münasibətlərdə dövlət başçıları tərəfindən bəyannamələrə üstünlük verilməsi nəzərə çarpır və bunun hüquqi və siyasi müstəvidə əsasları mövcuddur.

Beynəlxalq hüquqda bu sənədləri bir-birindən ayıran əsas meyar onların hüquqi məsuliyyətidir. Beynəlxalq müqavilə (saziş) tərəflər üçün hüquqi öhdəliklər yaradan, pozulması beynəlxalq hüquqi məsuliyyətə səbəb olan "sərt hüquq" (hard law) sənədidir. Beynəlxalq müqavilə "pacta sunt servanda" prinsipinə tabedir [3, maddə 26] və bir qayda olaraq imzalanma ilə yanaşı ratifikasiya tələb edir. Bununla yanaşı BMT Nizamnaməsinin 102-ci maddəsinə əsasən beynəlxalq müqavilələr BMT-nin Katibliyində qeydiyyata alınır [4]. Bəyannamə isə öz təbiətinə

görə daha çox siyasi sənəddir, "yumşaq hüquq" (soft law) anlayışını özündə əks etdirir. Bəyannamə tərəflərin niyyətini, prinsiplərini və siyasi iradəsini ifadə edir, lakin birbaşa hüquqi öhdəlik doğurmur və məhkəmə müdafiəsinə malik deyil [5].

Prinsipial məqam ondan ibarətdir ki, sənədin hüquqi gücünü onun başlığı deyil, tərəflərin niyyəti və məzmunu müəyyən edir. 1969-cu il Beynəlxalq Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının 2-ci maddəsi müqaviləni "konkret adından asılı olmayaraq" beynəlxalq hüquqla tənzimlənən razılaşma kimi müəyyən edir [3, maddə 2]. Deməli, "bəyannamə" adlanan sənəd, əgər tərəflər hüquqi cəhətdən bağlanmaq niyyətindədirsə, xüsusi ilə də ratifikasiya olunan sənədlər, tam hüquqlu beynəlxalq müqavilə qüvvəsinə malik ola bilər. BMT-nin Beynəlxalq Məhkəməsi də öz təcrübəsində sənədin başlığına deyil, tərəflərin bağlanmaq niyyətinə üstünlük vermişdir.

Son onilliklərdə dövlətlərin müqavilə əvəzinə bəyannamə formasına üstünlük verməsi bir sıra amillərlə izah oluna bilər. Bura çeviklik və geri-dönmə imkanı, yəni öhdəliklər daha yumşaqdır, dəyişən şəraitə uyğunlaşdırmaq asandır. Sürət və daxili maneələrin baxımından isə uzun ratifikasiya prosedurları və parlament təsdiqi tələb olunmur, avtomatik hüquqi öhdəlik yaratmadan siyasi siqnal vermək imkanı, xüsusən hərbi sahədə (avtomatik "kollektiv müdafiə" öhdəliyi olmadan). Bunlarla yanaşı bəyannamələr çoxvektorlu siyasət üçün əlverişlidir, çünki dövlət eyni zamanda müxtəlif güc mərkəzləri ilə yaxınlaşa, özünü bir-birini istisna edən sərt blok öhdəliklərinə bağlamadan müttəfiqlik münasibətləri qura bilir.

Şuşa və Moskva bəyannamələri haqqında deyə bilərik ki, hər iki sənəd "bəyannamə" adlansa da, hüquqi statusuna görə eyni deyil. "Müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi (Şuşa, 15 iyun 2021-ci il) hər iki ölkənin parlamentləri tərəfindən ratifikasiya edildiyi üçün Vyana Konvensiyasının 2-ci maddəsi baxımından beynəlxalq müqavilə qüvvəsi qazanmışdır. Onun hərbi öhdəlikləri daha sərt və kollektiv müdafiə məntiqinə yaxındır. "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Moskva Bəyannaməsi (Moskva, 22 fevral 2022-ci il) isə prezidentlər tərəfindən imzalanmış siyasi sənəd olaraq qalır . Onun ifadələri daha yumşaq və şərtidir, konkret öhdəlikdən çox suverenlik, ərazi bütövlüyü, güc tətbiq etməmək prinsiplərinə əsaslanır. Beləliklə, iki «müttəfiqlik» bəyannaməsinin imzalanması ziddiyyət deyil, öhdəliklərin dərəcələnməsidir: hüquqi möhkəmlik tələb olunduqda bəyannamə ratifikasiya yolu ilə müqavilə səviyyəsinə qaldırılır, siyasi siqnal kifayət etdikdə "yumşaq hüquq" müstəvisində saxlanılır.

Hər iki sənəd 44 günlük Vətən müharibəsindən [6] sonra yaranan yeni şəraitin məhsuludur, lakin onların imzalanma konteksti fərqlidir. Şuşa Bəyannaməsi qələbədən təxminən yeddi ay sonra, simvolik məkanda, işğaldan azad edilmiş, Azərbaycanın və bütün türk dünyasının mədəniyyət mərkəzi sayılan Şuşa şəhərində imzalandı. Bu seçim sənədə güclü mənəvi-simvolik məzmun verdi və onu Azərbaycan-Türkiyə qardaşlığının zəfər rəmzinə çevirdi.

Moskva Bəyannaməsi isə müharibədən bir ildən artıq sonra, 22 fevral 2022-ci ildə, Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsindən cəmi iki gün əvvəl imzalandı. Bu zaman uyğunluğu sənədə xüsusi geosiyasi məna verir: Azərbaycan böyük regional böhran ərəfəsində şimal qonşusu ilə münasibətlərini hüquqi cəhətdən möhkəmləndirərək öz təhlükəsizlik mövqeyini tarazlaşdırmağa çalışırdı. Beləliklə, hər iki bəyannamə Azərbaycanın müharibədən sonrakı xarici siyasətinin iki fərqli istiqamətini təmsil edir.

Müqayisənin ilk və diqqətçəkən nöqtəsi bəyannamələrin adlandırılmasıdır. Türkiyə ilə imzalanan sənəd "müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi, Rusiya ilə imzalanan sənəd isə "müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə adlanır. İlk baxışdan cüzi görünən bu fərq əslində mühüm məzmun fərqini əks etdirir: "müttəfiqlik münasibətləri" daha sıx, institusional və hərtərəfli ittifaqı, "müttəfiqlik qarşılıqlı fəaliyyəti" isə daha çevik, müəyyən sahələrlə məhdudlaşan əməkdaşlığı nəzərdə tutur. Adlandırmadakı bu nüans onların mahiyyətcə tam eyni sənədlər olmadığını göstərir.

Fərq sənədlərin strukturunda da özünü göstərir. Şuşa Bəyannaməsi geniş preambula və ardınca gələn maddələrdən ibarətdir; o, 2010-cu il tarixli strateji tərəfdaşlıq müqaviləsinin [7] və 1921-ci il Qars müqaviləsinin [8] davamı kimi təqdim olunur və tarixi-hüquqi varislik üzərində qurulur. Moskva Bəyannaməsi isə 43 nömrələnmiş bənddən ibarət, daha texniki və sahələr üzrə strukturludur; o, 1997-ci il Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik müqaviləsinə [9] və 2008-ci il Strateji tərəfdaşlıq bəyannaməsinə əsaslanır [10]. Beləliklə, hər iki sənəd əvvəlki ikitərəfli müqavilələr üzərində yüksələrək münasibətləri keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırmağı bəyan edir.

Hər iki bəyannamənin mərkəzi məsələsi təhlükə-

sizlik və qarşılıqlı yardım öhdəlikləridir, lakin məhz bu sahədə onlar arasında ən əhəmiyyətli fərq müşahidə olunur. Şuşa Bəyannaməsi üçüncü dövlət tərəfindən təhdid və ya təcavüz olduğu təqdirdə tərəflərin birgə məsləhətləşmələr aparacağını və bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəyini nəzərdə tutur; üstəlik, sənəd bu yardımın həcm və formasının müəyyənləşdirilməsini, hətta "Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkilini" [1] birbaşa qeyd edir. Bu, qarşılıqlı müdafiə öhdəliyinə yaxın, kifayət qədər qəti formuladır.

Moskva Bəyannaməsində isə hərbi yardım məsələsi xeyli yumşaq və şərti ifadə olunmuşdur. Sənədin 16-cı bəndinə görə, tərəflər təhlükəsizliyin təmini məqsədilə bir-birinə hərbi yardım göstərilməsi "imkanını nəzərdən keçirə bilərlər" [2]. "Nəzərdən keçirə bilərlər" ifadəsi avtomatik öhdəlik deyil, yalnız potensial imkan yaradır. Beləliklə, Şuşa Bəyannaməsi müttəfiqlik öhdəliyini daha bağlayıcı, Moskva Bəyannaməsi isə daha ehtiyatlı və çevik formada təsbit edir. Bu fərq Azərbaycanın Türkiyə ilə münasibətlərinin daha dərin müttəfiqlik, Rusiya ilə münasibətlərinin isə tarazlaşdırılmış strateji qarşılıqlı fəaliyyət xarakteri daşıdığını aydın göstərir.

Bu fərqi beynəlxalq hərbi-siyasi blokların öhdəlik standartları ilə tutuşdurduqda daha aydın görmək mümkündür. NATO-nun əsasını təşkil edən Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsi ittifaq üzvlərindən birinə qarşı silahlı hücumu hamısına qarşı hücum kimi qiymətləndirərək ən güclü kollektiv müdafiə öhdəliyinin nümunəsidir [11]. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Müqaviləsinin 4-cü maddəsi də üzv dövlətə təcavüzü bütün iştirakçılara qarşı təcavüz sayır və zəruri yardım, o cümlədən hərbi yardım göstərilməsini nəzərdə tutur, lakin yardımın forması məsləhətləşmələr yolu ilə müəyyənləşdirilir [12]. Bu şkala üzərində Şuşa Bəyannaməsi avtomatik xarakter daşımasa da, BMT Nizamnaməsinə istinad edən, qarşılıqlı yardımın həcm və formasını, hətta silahlı qüvvələrin idarəetmə strukturlarının əlaqələndirilməsini nəzərdə tutan müddəaları ilə qarşılıqlı müdafiə öhdəliyinə xeyli yaxındır. Moskva Bəyannaməsi isə hərbi yardımın yalnız "mümkünlüyünü nəzərdən keçirmək" formulu ilə həm Şuşadan, həm də KTMT-nin 4-cü maddəsindən daha yumşaq mövqedə dayanır. Beləliklə, öhdəliklərin dərinliyi baxımından aydın bir dərəcələnmə müşahidə olunur: NATO-nun 5-ci maddəsi, KTMT-nin 4-cü maddəsi, Şuşa Bəyannaməsi, Moskva Bəyannaməsi. Eyni zamanda, hər iki sənəd avtomatik "müharibəyə cəlbetmə" mexanizmindən məhrumdur, bu da Azərbaycana hər iki istiqamətdə müttəfiqlik münasibətləri qurarkən öz hərəkət sərbəstliyini və qərar müstəqilliyini qorumağa imkan verir.

Bununla yanaşı, iki sənəddə bir sıra prinsipial oxşarlıqlar da vardır. Hər ikisi müstəqillik, suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq prinsiplərini təsbit edir. Hər iki sənəd tərəflərin müstəqil xarici siyasət yeritdiyini xüsusi vurğulayır. Ən əsası isə həm Şuşa, həm Moskva bəyannaməsi açıq şəkildə bildirir ki, inkişaf etdirilən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir. Məhz bu müddəa Azərbaycanın hər iki müttəfiqlik sənədini bir-biri ilə uzlaşdırmasına hüquqi əsas verir.

Bəyannamələrin iqtisadi və nəqliyyat müddəaları Azərbaycanın iki fərqli geoiqtisadi vektorunu əks etdirir. Şuşa Bəyannaməsi Cənub Qaz Dəhlizinə, Şərq-Qərb (Orta Dəhliz) nəqliyyat marşrutuna və Zəngəzur dəhlizinin, eləcə də Naxçıvan-Qars dəmir yolunun açılmasına xüsusi diqqət yetirir. Bu, Xəzərdən Avropaya doğru qərb istiqamətli, türk dünyasını birləşdirən nəqliyyat-enerji oxudur. Moskva Bəyannaməsi isə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə, Xəzər regionunda əməkdaşlığa, milli valyutalarda hesablaşmalara və geniş sənaye sahələri üzrə əməkdaşlığa üstünlük verir. Beləliklə, iki sənəd coğrafi baxımdan bir-birini istisna etmir, əksinə, tamamlayır: Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin qovşağında mərkəzi mövqe tutur.

Humanitar-mədəni sahədə də fərqliliklərə rast gəlinir. Şuşa Bəyannaməsi "bir millət, iki dövlət" düsturuna, türk dünyasının birliyinə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY və Türk Akademiyası kimi qurumlara, habelə Azərbaycan və türk diasporlarının birgə fəaliyyətinə istinad edir. Moskva Bəyannaməsi isə Müstəqil Dövlətlər Birliyi məkanındakı inteqrasiya proseslərinə, milli azlıqların mədəni irsinin qorunmasına və Rusiya ilə Azərbaycan xalqları arasındakı tarixi mədəni yaxınlığa diqqət yetirir. Bu fərqlər hər iki dövlətlə münasibətlərin özünəməxsus mədəni zəminini göstərir.

Şuşa və Moskva bəyannamələrinin müqayisəli təhlili göstərir ki, onları sadəcə "eyni mahiyyətli" iki sənəd kimi qiymətləndirmək doğru deyil. Adlandırmadan tutmuş hərbi öhdəliklərin dərinliyinə, geoiqtisadi və mədəni vurğulara qədər bir sıra fərqlər mövcuddur. Bu fərqlər təsadüfi deyil. Onlar Azərbaycanın hər iki dövlətlə münasibətlərinin fərqli xa-

rakterini və müxtəlif strateji məqsədlərini əks etdirir.

Nəzəri baxımdan Azərbaycanın bu addımları "balanslaşdırma" və çoxvektorlu xarici siyasət anlayışları çərçivəsində izah oluna bilər [14, s. 125]. Beynəlxalq münasibətlər nəzəriyyəsində kiçik və orta dövlətlər böyük güclər arasında manevr edərək, heç birinin tam təsir dairəsinə düşmədən öz müstəqilliyini və təhlükəsizliyini qoruyurlar [15]. Heydər Əliyevin əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət kursu məhz bu məntiqə söykənir. Türkiyə ilə dərin müttəfiqlik Azərbaycanın strateji dayağını, Rusiya ilə qarşılıqlı fəaliyyət isə şimal istiqamətində təhlükəsizlik zəmanətini təmin edir. Hər iki sənəddə "üçüncü dövlətlərə qarşı yönəlməmişdir" müddəasının olması bu balansı hüquqi cəhətdən mümkün edir.

Müasir beynəlxalq münasibətlər nəzəriyyəsi baxımından Azərbaycanın davranışını daha dəqiq "hedcinq" (hedging) strategiyası kimi səciyyələndirmək olar. Klassik realist təhlildə dövlət ya güclənən tərəfə qarşı "balanslaşdırma", ya da ona qoşulma ("bandwagoning") seçimi qarşısında qalır; lakin kiçik və orta dövlətlər çox vaxt bu ikili seçimdən yayınaraq aralıq mövqe tutur, yani eyni anda bir neçə güc mərkəzi ilə əməkdaşlıq qurmaqla heç birinin müstəsna təsir dairəsinə düşməməyə çalışırlar [16]. "Hedcinq" məhz belə bir strategiyadır: dövlət rəqabətdə olan böyük güclərlə paralel münasibətlər inkişaf etdirməklə həm təhlükəsizlik zəmanəti əldə edir, həm də gələcək qeyri-müəyyənliyə qarşı özünəməxsus "sığorta" yaradır. Azərbaycanın Türkiyə ilə dərin müttəfiqlik qurarkən Rusiya ilə də paralel müttəfiqlik sənədi imzalaması bu məntiqə tam uyğundur. Bu, nə Qərbə qarşı balanslaşdırma, nə də hər hansı bir mərkəzə tam qoşulmadır, əksinə, müstəqilliyi və manevr imkanını maksimuma çatdıran tarazlaşdırılmış mövqedir. Bu mənada Şuşa və Moskva bəyannamələri 2020-ci il qələbəsindən sonra güclənmiş Azərbaycanın regional aktor kimi öz subyektliliyini və strateji çevikliyini təsdiqləməsinin hüquqi təzahürüdür.

Beləliklə, fərqli bloklara mənsub iki dövlətlə müttəfiqlik sənədlərinin imzalanması ziddiyyət yox, düşünülmüş strateji seçimdir. Bu, Azərbaycanın regional güc balansında müstəqil və çevik aktor kimi mövqeyini möhkəmləndirir.

Azərbaycanın yürütdüyü balanslaşdırılmış siyasətin əyani təsdiqini Rusiya-Ukrayna müharibəsi kontekstində görmək mümkündür. Moskva Bəyannaməsinin Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən cəmi iki gün əvvəl imzalanmasına baxmayaraq, Azərbaycan müharibə başlayandan sonra Ukraynaya əhəmiyyətli humanitar yardım göstərdi: SOCAR Ukraynanın xəstəxana və təcili yardım maşınları üçün pulsuz yanacaq ayırdı, ölkəyə tibbi ləvazimat və enerji infrastrukturunun bərpası üçün avadanlıq göndərildi [15]. Eyni zamanda Azərbaycan ardıcıl olaraq Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədi ki, bu da onun beynəlxalq hüquqa və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipinə əsaslanan öz mövqeyi ilə tam uzlaşır. Bu fakt onu göstərir ki, Rusiya ilə imzalanmış müttəfiqlik bəyannaməsi Azərbaycanı Moskvanın peyki və ya onun xarici siyasətinin icraçısına çevirmədi, əksinə, Azərbaycan müstəqil aktor olaraq bütün tərəflərlə münasibətlərini öz milli maraqları əsasında qurmağa davam etdi. Məhz bu cür çoxvektorlu və balanslaşdırılmış yanaşma Azərbaycana eyni vaxtda Rusiya, Ukrayna, Türkiyə və Qərb ilə konstruktiv münasibətlər saxlamağa imkan verir.

Azərbaycan üçün hər iki bəyannamə müharibədən sonrakı təhlükəsizlik mühitini hüquqi cəhətdən möhkəmləndirən, onun çoxvektorlu xarici siyasətini institusionallaşdıran sənədlərdir. Türkiyə üçün Şuşa Bəyannaməsi Cənubi Qafqazda mövqelərinin güclənməsini, türk dünyası ilə əlaqələrin dərinləşməsini və Orta Dəhliz vasitəsilə Avrasiyaya çıxışının möhkəmlənməsini təmin edir. Rusiya üçün Moskva Bəyannaməsi isə Cənubi Qafqazda və Xəzər regionunda nüfuzunun saxlanmasına, Azərbaycanın tam Qərb-türk oxuna keçməsinin qarşısının alınmasına və "Şimal-Cənub" dəhlizi vasitəsilə öz geoiqtisadi maraqlarının təmininə xidmət edir. Eyni zamanda belə bir qənaətə gəlmək olar ki, Azərbaycan və Rusiya qarşıda gözlənilən Rusiya-Ukrayna hərbi münaqişəsində özlərinə hər iki tərəfin bir birilərinə qarşı hərbi əməliyyatlara cəlb olunmayacağına və ərazilərinin üçüncü dövlətlər tərəfindən istifadə olunmayacağına zəmanət əldə etmiş oldular. Bunu Moskva Bayannaməsinin ən vacib məqamlardan biri kimi qiymətləndirmək olar. Şuşa Bəyannaməsinin imzalanması və Azərbaycanın ən əsas hərbi-siyasi və strateji əməkdaşı kimi Türkiyənin olması Moskva üçün Rusiya-Ukrayna münaqişəsində problem yarada biləcək bir məqam kimi qiymətləndirilə bilərdi.

Bu mənada hər üç dövlət bəyannamələrdən özünəməxsus fayda əldə edir və bu, sənədlərin uzunömürlülüyünə təminat verir. Azərbaycanın diplomatik məharəti məhz bir-biri ilə rəqabətdə olan güclərlə eyni vaxtda qarşılıqlı faydalı münasibətlər qura bilməsində özünü göstərir.

Nəticə. Şuşa və Moskva bəyannamələrinin müqayisəli təhlili aşağıdakı nəticələrə gəlməyə imkan ve-

rir. Birincisi, hər iki sənəd Azərbaycanın 2020-ci il qələbəsindən sonrakı güclənmiş beynəlxalq mövqeyinin və müstəqil xarici siyasətinin təzahürüdür. İkincisi, ümumi cəhətlərinə baxmayaraq (suverenliyə hörmət, müstəqil xarici siyasət, üçüncü dövlətlərə qarşı yönəlməmə) bəyannamələr mahiyyətcə eyni deyil, adlandırması, strukturu, hərbi öhdəliklərin dərinliyi və geoiqtisadi istiqamətləri fərqlidir. Şuşa Bəyannaməsi daha dərin və bağlayıcı müttəfiqlik, Moskva Bəyannaməsi isə daha çevik və tarazlaşdırılmış strateji qarşılıqlı fəaliyyət nümunəsidir.

Üçüncüsü və ən əsası, fərqli hərbi-siyasi bloklara mənsub iki dövlətlə müttəfiqlik sənədlərinin imzalanması Azərbaycan üçün ziddiyyət deyil, onun balanslaşdırılmış və çoxvektorlu xarici siyasətinin məntiqi ifadəsidir. Bu siyasət Azərbaycana regional güc balansında müstəqil aktor kimi çıxış etməyə, böyük güclər arasında manevr edərək öz milli maraqlarını qorumağa imkan verir. Beləliklə, Şuşa və Moskva bəyannamələri bir-birini istisna edən deyil, Azərbaycanın vahid strateji kursu çərçivəsində bir-birini tamamlayan sənədlər kimi dəyərləndirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. Şuşa, 15 iyun 2021-ci il // president.az.*

*2. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə. Moskva, 22 fevral 2022-ci il // president.az.*

*3. Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyası. Vyana, 23 may 1969-cu il. https://www.un.org/ru/documents/decl_conv/conventions/law_treaties.shtml*

*4. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. San-Fransisko, 26 iyun 1945-ci il, maddə 102.*

*5. Hillgenberg H. A Fresh Look at Soft Law // European Journal of International Law. 1999. Vol. 10, № 3. p. 499–515.*

*6. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin Birgə Bəyanatı. 10 noyabr 2020-ci il. https://president.az/az/articles/view/45923*

*7. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə. 16 avqust 2010-cu il. https://e-qanun.az/framework/21158*

*8. Türkiyə Böyük Millət Məclisi ilə Rusiya arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi.*

*9. Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə. 3 iyul 1997-ci il.*

*10. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə. 2 oktyabr 2008-ci il. https://e-qanun.az/framework/15611*

*11. Şimali Atlantika Müqaviləsi. Vaşinqton, 4 aprel 1949-cu il, maddə 5.*

*13. Kollektiv Təhlükəsizlik haqqında Müqavilə. Daşkənd, 15 may 1992-ci il, maddə 4.*

*14. Morgenthau H. J. Politics Among Nations: The Struggle for Power and Peace. New York: Alfred A. Knopf, 1948. p.125*

*15. Waltz K. N. Theory of International Politics. Reading (Mass.): Addison-Wesley, 1979.*

*16. Kuik C.-C. The Essence of Hedging: Malaysia and Singapore's Response to a Rising China // Contemporary Southeast Asia. 2008. Vol. 30, № 2. p. 159–185.*

*17. Azerbaijan's support for Ukraine since the Russian invasion // Topchubashov Center, top-center.org*

**Ирада Алекбер Абдуллаева**
***Бакинский Государственный Университет, Кафедра Дипломатиии и современных интеграционных процессов***

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ШУШИНСКОЙ И МОСКОВСКОЙ ДЕКЛАРАЦИЙ В КОНТЕКСТЕ СБАЛАНСИРОВАННОЙ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В статье проводится сравнительный анализ двух стратегических документов, подписанных Азербайджанской Республикой после Отечественной войны 2020 года -Шушинской Декларации с Турецкой Республикой от 15 июня 2021 года и Московской Декларации с Российской Федерацией от 22 февраля 2022 года. В статье исследуются правовая форма деклараций, глубина военно-политических обязательств, экономико-транспортные и гуманитарные направления. Особое внимание уделяется различному характеру положений о взаимной военной помощи. Кроме того, в статье рассматривается тот факт,

что оба документа имеют форму декларации, а не международного договора, юридическое различие между ними и причины предпочтения этой формы. Делается вывод о том, что одновременное подписание союзнических документов с двумя государствами, принадлежащими к разным военно-политическим блокам, является для Азербайджана не противоречием, а логичным выражением его многовекторной и сбалансированной внешней политики.

**Ключевые слова:** *Шушинская декларация, Московская декларация, союзничество, стратегическое партнёрство, сбалансированная внешняя политика, многовекторная политика, баланс сил, Азербайджан, Турция, Россия.*

**Irada Alakbar Abdullayeva**
***Baku State University,***
***Department of Diplomacy and modern integration processes***

## A COMPARATIVE ANALYSIS OF THE SHUSHA AND MOSCOW DECLARATIONS IN THE CONTEXT OF AZERBAIJAN'S BALANCED FOREIGN POLICY

### SUMMARY

The article provides a comparative analysis of two strategic documents signed by the Republic of Azerbaijan after the Patriotic War of 2020 - the Shusha Declaration with the Republic of Türkiye of 15 June 2021 and the Moscow Declaration with the Russian Federation of 22 February 2022. The article examines the legal form of the declarations, the depth of their military-political commitments, and their economic-transport and humanitarian dimensions. Particular attention is paid to the different character of the provisions on mutual military assistance. The article also examines why both documents take the form of a declaration rather than an international treaty, the legal distinction between them, and the reasons for preferring this form. It is concluded that the simultaneous signing of allied documents with two states belonging to different military-political blocs is not a contradiction for Azerbaijan but a logical expression of its multi-vector and balanced foreign policy.

**Key words:** *Shusha Declaration, Moscow Declaration, alliance, strategic partnership, balanced foreign policy, multi-vector policy, balance of power, Azerbaijan, Türkiye, Russia.*

*Rəyçi: S.e.f.d., dosent Kərəm Məmmədov*
*Məqalə redaksiyaya daxil olub: 11.01.2026*
*Çapa qəbul olunub: 27.02.2026*

*The date of the admission of the article to the editorial office: 11.01.2026*
*Accepted for publication: 27.02.2026*